**Qarşıdakı 4 ay ölkəmiz üçün olduqca əhəmiyyətlidir. Odlar Yurdu noyabrda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi etməyə hazırlaşır. İrimiqyaslı beynəlxalq tədbirlərin keçirilməsi isə hər bir azərbaycanlının üzərinə böyük məsuliyyət qoyur.**

Onu da qeyd etmək lazımdır ki, indiyədək ölkəmizdə bir çox beynəlxalq tədbir keçirilib. Amma COP29 bu vaxta qədər reallaşan qlobal toplantılar-

# COP29-a xüsusi hazırlıq görülür



la müqayisədə daha mühümüdür. Prezident İlham Əliyev də ötən il dekabrın 15-də keçirilən müşavirədə məhz bu məqamı vurğulamışdı. Dövlət başçısı bildirmişdi ki, Avropa Oyunlarında 5 min idmançı və onları müşayiət edən təqribən 3 min qonaq ölkəyə gəlmişdi. Ancaq COP29-da 10 minlərlə xarici nümayəndə Azərbaycana səfər edəcək, iki həftə ərzində Bakı dünyanın mərkəzi olacaq.

**(davamı 11-ci səhifədə)**

# COP29-a xüsusi hazırlıq görülür




(əvvəli 1-ci səhifədə)

İlkin ehtimallara görə, təqribən 70-80 min xarici qonaq bu müddət ərzində ölkədə olacaq. Belə bir tədbirə ev sahibliyi etməyimiz isə təsadüfi deyil. Çünki Azərbaycanın yerləşdiyi əlverişli coğrafi mövqe kifayət qədər bərpaolunan enerji mənbələrinin potensialından istifadə etməyə şərait yaradır. Bu istiqamətdə Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalaması xüsusi əhəmiyyət kəsb edir.

Ümumilikdə, Azərbaycan işğaldan azad olunan ərazilərin yenidən qurulmasına enerji dayanıqlılığı ilə bağlı müasir çağırışlar və qlobal iqlim dəyişikliyi probleminin həllinə dəstək müstəvisində yanaşır. Bunun reallaşdırılması üçün isə Qarabağ və Şərqi Zəngəzurun geniş potensial imkanları var. Tərtərçay, Həkəri çayı və bu çayların qollarında böyük hidroenerji potensiallarının mövcudluğu ilə yanaşı, Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli rayonlarında günəş enerjisi layihələri üçün əlverişli imkan mövcuddur. Bu texniki potensial 7200 MVt-dan artıq olaraq qiymətləndirilir. Eyni zamanda ilkin araşdırmalara əsasən, Laçın və Kəlbəcərin dağlıq ərazilərində külək enerjisinin 2000 MVt həcmində texniki potensialının olması müəyyən edilib. COP29 ölkəsi olaraq Azərbaycanda bu cür enerji qaynaqlarının olması və onlardan səmərəli istifadə mühüm məsələdir. Bu əsasda ölkəmiz 2030-cu ilədək və ondan sonrakı dövrdə "yaşıl enerji", iqlimlə bağlı hədəflərin reallaşmasına milli səviyyədə töhfə vermək və iqlim fəaliyyəti üzrə qlobal həmrəyliyin hərəkətverici qüvvəsi olmaq əzmindədir. COP29 konfransına ev sahibliyini Azərbaycan üçün 2024-cü ilin ən mühüm hadisəsi və ölkənin "yaşıl iqtisadiyyat"a keçid strategiyasının məntiqi davamı kimi qiymətləndirmək olar. Bu missiyaya uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib.




Bu baxımdan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası Azərbaycan üçün xüsusi önəm daşıyır. Ona görə də bir çox qurum koordinasiyalı şəkildə tədbirin uğurlu təşkili üçün birgə çalışır. İlk növbədə qeyd etmək lazımdır ki, COP29 könüllülük proqramı ilə gəncləri əhatə edəcək. Onlar həm də konfransın atmosferini və fəaliyyətlərini yaxından görmək, yeni insanlar, ekspertlərlə tanış olmaq, gələcək karyera və şəxsi inkişafları üçün dəyərli təcrübələr qazanmaq imkanı əldə edəcəklər. Digər tərəfdən, Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında iştirak üçün qeydiyyatdan keçmiş bütün tərəflərə ödənişsiz elektron "COP29 xüsusi viza" xidmətləri təqdim edəcək. Azərbaycan qeydiyyatdan keçən iştirakçıların ölkəyə rahat girişini təmin etmək məqsədilə COP29 viza müraciət sistemini də aktivləşdirib. Bunun üçün iştirakçılar link vasitəsilə viza portalına daxil olaraq formanı doldurmalı və tələb olunan sənədləri yükləyərək təsdiq üçün təqdim etməlidirlər. Prosesin bu qədər sadələşdirilməsi rəsmi Bakının tədbirin təşkilatçılığı istiqamətində atdığı uğurlu addımlardandır. Bir digər xəbərə görə, COP29 çərçivəsində parlament iclası keçiriləcək. VI çağırış Mili Məclisin sədri Sahibə Qafarova Sankt-Peterburqda BRİCS ölkələrinin Parlament Forumunda çıxış edərkən deyib ki, bu görüş parlamentarilər üçün fikir mübadiləsi aparmaq və iqlim dəyişikliyi ilə mübarizədə həll yollarının tapılması üçün əlverişli fürsət olacaq, həmçinin bu sahədə çoxtərəfli fəaliyyətin həyata keçirilməsinə töhfəsini verəcək.

Ümumiyyətlə, Azərbaycanda müxtəlif səviyyəli rəsmilər bütün dünyanın diqqətini bu tədbirə çəkmək istəyirlər. Çünki hazırda dünyanın ekosistemi ciddi şəkildə zərər görüb. Amma nəzərə almaq lazımdır ki, yaşadığımız planet hər birimizin evidir. Buna görə də onu qorumaq hər kəsin borcudur.

**Jalə QASIMZADƏ,**
**"Respublika".**

---

*COP - İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası insanın iqlim mühitinə təhlükəli müdaxiləsinin qarşısını almaq məqsədilə 1992-ci ilin iyununda Rio-de-Janeyro şəhərində keçirilmiş Yer Sammitində imzalanmış sazişdir. COP (Conference of Parties) abreviaturunun ingilis dilindən tərcüməsi Tərəflər Konfransı deməkdir. Tərəflərin Konfransı İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icrasına nəzarət edən ali qərarverici orqandır. Bu Konvensiyaya üzv olan 190-dan çox ölkə var.*

*Ötən il dekabrın 11-də Dubayda COP28-in plenar iclasında COP29-un bu il Azərbaycanda keçirilməsi haqqında qərar qəbul olunub.*

